# Azərbaycan və Özbəkistan həmkarlar ittifaqları sahəsində də əməkdaşlığı möhkəmləndiririlər

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Özbəkistanda səfərdədir.**





Sentyabrın 20-də AHİK sədri Səttar Möhbalıyev və Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının (ÖHİF) sədri Qudratulla Rafiqov Daşkənddə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad edərək abidə önünə gül dəstələri qoyublar.

Səttar Möhbalıyev və onu müşayiət edən şəxslər Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində olublar. AHİK sədri mərkəzin fəaliyyəti ilə tanış olub, Azərbaycan diaspor təşkilatının nümayəndələri ilə görüşüb.

Sonra ÖHİF-in Əmək və Sosial Münasibətlər Akademiyasına gələn AHİK sədri ali təhsil ocağının Elmi şurasının üzvləri, professor-müəllim heyəti və tələbələri ilə görüşüb. Tədbirdə çıxış edən Səttar Möhbalıyev Azərbaycan və Özbəkistan arasında mövcud münasibətlərdən, bütün sahələr üzrə davamlı inkişaf edən qarşılıqlı faydalı əməkdaşlıqdan, həmçinin ölkələrimizin həmkarlar ittifaqlarının əlaqələrindən danışıb. Tədbirdə Səttar Möhbalıyevə akademiyanın "Fəxri professor" diplomu təqdim olunub.

Daha sonra ÖHİF-in binasında təşkil olunan görüşdə Qudratulla Rafiqov və Səttar Möhbalıyev iki ölkə arasında qardaşlıq münasibətlərindən, həmçinin iki qurum arasında mövcud əlaqələrdən, əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərdən və perspektivlərdən danışıblar.

ÖHİF və AHİK arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum imzalanıb. Memorandum qurumlar arasında əvvəllər imzalanmış sənədlərin davamı olaraq həm ÖHİF və AHİK, həm də sahə həmkarlar ittifaqları arasında əlaqələri genişləndirəcək, münasibətlərdə yeni mərhələ təşkil edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 22 sentyabr.- S.3.